Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.1-ci bəndini və 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq əmr edirəm:

1. Azərbaycan Respublikası təhsil nazirinin "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Apellyasiya Şurasının yaradılması barədə" 2016-cı il 16 fevral tarixli, 84 nömrəli əmrinin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. beşinci abzasda "Muxtar Məmmədov – Aparatın rəhbəri" sözləri "Nərminə Hüseynova – Aparat rəhbərinin müavini" sözləri ilə əvəz edilsin;

1.2. doqquzuncu abzasdan "müdir müavini," sözləri çıxarılsın;

1.3. onuncu abzasda "Zamin Bədirxanov – Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşəyönümü və işəgötürənlərlə əməkdaşlıq şöbəsinin müdiri" sözləri "Nigar İsmayılzadə-Əsgərova – Peşə Təhsili üzrə Dövlət Agentliyinin İşəgötürənlərlə iş və innovativ layihələr şöbəsinin müdir müavini" sözləri ilə əvəz edilsin.

2. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin çatdırılma siyahısına uyğun çatdırılmasını təmin etsin.

3. İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə edilsin.

Əsas: Nazir müavini Firudin Qurbanovun 31.05.2021-ci il tarixli 1-03-2790 nömrəli təqdimatı.

***Emin ƏMRULLAYEV,***
***Azərbaycan Respublikasının Təhsil naziri***
***9 iyul 2021-ci il***
***F-343***